# Dünya Azərbaycanı dəstəkləyir, Ermənistanın təcavüzünü pisləyir

## İstanbul

İyulun 19-da İstanbulun mərkəzi bölgələrindən olan "Beyazıt meydanı"nda Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz istiqamətində törədilən təxribatla bağlı etiraz aksiyası keçirilib.

Türkiyədən qardaş Azərbaycana dəstək məqsədilə keçirilən tədbir "Turan Ocaqları", "Bütöv Azərbaycan Ocaqları" İctimai birliklərinin, eləcə də Türkiyədə və İstanbulda fəaliyyət göstərən bir çox Azərbaycan-Türkiyə dostluq cəmiyyətlərinin və İstanbul Universiteti nəzdindəki "Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi"nin təşəbbüsü ilə baş tutub. Aksiyada hər iki ölkənin şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Ermənistanın Azərbaycana qarşı illərdən bəri davam edən işğalçılıq siyasətindən bəhs edib, iyulun 12-dən başlayaraq Azərbaycanın Tovuz rayonu istiqamətində ölkəmizə qarşı törədilən hərbi təxribatlardan danışıblar.

Qardaş Türkiyənin Azərbaycana dəstəyinin qürurverici olduğunu bildirən çıxışçılar Azərbaycanın və Türkiyənin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın hər şəraitdə ölkələrimizin, eləcə də xalqlarımızın maraq və mənafelərini qarşılıqlı şəkildə müdafiə etdiklərini vurğulayıblar.

Mitinqdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, erməni işğalına son qoyulması ilə bağlı şüarlar səsləndirilib.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin dərhal dayandırılması, işğalçı tərəfin hərbi qüvvələrinin BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərar və qətnamələrinə uyğun olaraq Azərbaycan ərazisini tərk etməsi tələb olunub.

Bildirilib ki, son günlər düşmənin davamlı hərbi təxribatlarının qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu işğal altındakı torpaqları düşməndən azad etmək iqtidarındadır.

Tədbirdə iştirak edən Türkiyə vətəndaşları lazım olduğu təqdirdə azərbaycanlı qardaşları ilə yanaşı, düşmənə qarşı savaşa hazır olduqlarını bildiriblər.

## Bern

İyulun 19-da İsveçrənin Cenevrə şəhərində əsgərlərimizə dəstək və son hərbi təxribatlara etiraz aksiyası keçirilib.

İsveçrədə Ermənistanın səfirliyinin Berndə olmadığına və daimi nümayəndəliyinin Cenevrədə olduğuna görə, bu ölkənin Bern, Sürix və Soloturn kantonlarında yaşayan soydaşlarımız Cenevrəyə yürüşdə iştirak ediblər. Yürüşə 200-ə qədər diaspor nümayəndəsi qatılıb.

Yürüş "Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi"nin rəhbəri Qasım Nəsirov və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən yaradılmış İsveçrə Konfederasiyasında Azərbaycan Diasporunun Koordinasiya Şurasının əlaqələndiricisi Əkbər Gəncə tərəfindən təşkil olunub.

Aksiya Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra erməni silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi təxribat zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Həm diaspor nümayəndələri, həm də yerli sakinlər tərəfindən müxtəlif dillərdə çıxışlar edilib. Şəhər sakinləri ayaq saxlayaraq, tədbir iştirakçılarının tələbləri ilə maraqlanıblar. Eyni zamanda bir Portuqaliya vətəndaşı tədbirdə çıxış edərək, BMT Baş katibi Antonio Quterreşə müraciət edib, dünya ictimaiyyətini Azərbaycan xalqına dəstək olmağa və BMT qətnamələrinin yerinə yetirilməsinə çağırıb.

Diasporumuzun növbəti nailiyyəti olan bu tədbir xalqımızın və xaricdəki Azərbaycan diasporunun birliyini bir daha nümayiş etdirib.

## Cenevrə

İyulun 19-da BMT-nin Cenevrə şəhərindəki qərargahının önündə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatlar törətməsi ilə əlaqədar olaraq böyük etiraz aksiyası keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, İsveçrə Azərbaycanlılarının Koordinasiya Şurasının (İAKŞ) və İsveçrə Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən aksiyada diasporumuzun üzvləri ilə yanaşı, türk cəmiyyətlərinin nümayəndələri də iştirak ediblər.

Tədbirdə İAKŞ-ın əlaqələndiricisi Əkbər Gəncə, Beynəlxalq Demokratlar Birliyinin İsveçrə üzrə sədri Murat Şahin, Beynəlxalq İnsan Haqları və İnkişaf İttifaqı Dərnəyinin sədri Ender Demirtaş və başqaları çıxış ediblər. Çıxışçılar sülhpərvər, beynəlxalq hüquq normalarına hörmətlə yanaşan, bəşəri dəyərlərə böyük önəm verən müstəqil Azərbaycanın hər sınaqdan güclü olaraq çıxacağını, Dağlıq Qarabağın mütləq Ermənistanın işğalından azad olunacağına əminliklərini bildiriblər.

"Türk milləti olaraq azərbaycanlı qardaşlarımızın bu günə qədər olduğu kimi, bundan sonra da yanında olmağa davam edəcəyik. Bunu bir daha BMT binası önündən bütün dünyaya bəyan edirik", - deyə Murat Şahin söyləyib.

Çıxış edənlər BMT-dən Ermənistanın təxribatlarını və hücumlarını araşdırmaq üçün missiya təşkil etməyə, dünya birliyini işğalçı Ermənistana qarşı tədbirlər görməyə çağırıblar.

Azərbaycan və Türkiyənin dövlət bayraqlarının dalğalandırıldığı, Ermənistanın işğalçı siyasətinə etiraz plakatlarının qaldırıldığı aksiyada "Azərbaycana ədalət!", "Dağlıq Qarabağ Azərbaycanındır!", "Ermənistanın işğalına son qoyulsun!" və sair şüarlar səsləndirilib.

## Köln

Almaniyanın Köln şəhərində yaşayan azərbaycanlılar Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatla əlaqədar etiraz aksiyası keçiriblər.

Dinc şəkildə həyata keçirilən aksiyada yüzlərlə soydaşımız iştirak edib. Şəhərin Breslaur Platz adlanan ərazisində baş tutan aksiyaya Almaniyanın digər şəhərlərindən gələn azərbaycanlılar da qoşulub.

Aksiya iştirakçıları Azərbaycanın ərazi bütövlüyündən, qonşu Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkməsindən və Qarabağ həqiqətlərindən bəhs edən şüarlar səsləndirərək şəhərin mərkəzi küçələrində yürüş ediblər.

Yürüşdə "Şəhidlər ölməz, vətən bölünməz", "Qarabağ bizimdir, bizim olacaq", "Qarabağ Azərbaycandır və nida işarəsi" kimi şüarlar səsləndirilərək Azərbaycan Ordusuna və xalqına dəstək nümayiş etdirilib.

Aksiya iştirakçıları, eyni zamanda, Ermənistan silahlı qüvvələrinin Tovuz rayonunda yaşayış evlərini atəşə tutmasını, mülki şəxsləri hədəfə alaraq öldürməsini Köln sakinlərinin diqqətinə çatdırıblar.

Qeyd edək ki, daha əvvəl etiraz yürüşü ölkənin Düsseldorf şəhərində də keçirilib.